

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır



Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 185 (21.337)

22 sentyabr 2015-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 21-də dünya şöhrətli aktyor və rejissor Stiven Siqalı qəbul edib.

Azərbaycana səfərindən böyük məmnunluq hissi keçirdiyini bildirən Stiven Siqal ölkəmizdə gördüklərinin onda dərin təəssürat yaratdığını deyib. Stiven Siqal Bakıda birinci Avropa Oyunlarının yüksək səviyyədə təşkil olunmasının və bu yarışlarda çoxlu sayda idmançının iştirakının onda böyük heyranlıq yaratdığını deyib. Birinci Avropa Oyunları ilə bağlı görülən işlərin misilsiz dərəcədə möhtəşəm olduğunu vurğulayan qonaq, ümumiyyətlə, Azərbaycanda qazanılan nailiyyətlərin dünyada tanıdılması və təbliğinin önəmini qeyd edib.

Xoş sözlərə görə təşəkkürünü bildirən dövlətimizin başçısı birinci Avropa Oyunlarının ölkəmiz və eləcə də Avropa üçün tarixi hadisə olduğunu deyib. Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycan bu oyunları yüksək səviyyədə keçirməklə, əslində, Avropa Oyunlarının standartlarını müəyyən edib. Dövlətimizin başçısı ölkəmizin artıq müxtəlif beynəlxalq tədbirlərin, o cümlədən mühüm idman yarışlarının keçirildiyi bir məkana çevrildiyini vurğulayıb.

Görüşdə son illər Azərbaycanda bütün istiqamətlərdə, o cümlədən mədəniyyət və idman sahələrində əldə edilən uğurlardan danışılıb.



## Naxçıvan Muxtar Respublikası Milli Təhlükəsizlik Nazirliyinin yaradılmasının 23-cü ildönümü qeyd edilmişdir

*Naxçıvan Muxtar Respublikası Milli Təhlükəsizlik Nazirliyinin yaradılmasının 23-cü ildönümü münasibətilə sentyabrın 19-da Milli Təhlükəsizlik Nazirliyində tədbir keçirilmişdir.*

Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşları əvvəlcə ümummilli liderimiz Heydər Əliyevin nazirliyin inzibati binasındakı barelyefi önünə gül dəstəsi qoyaraq Onun əziz xatirəsini ehtiramla yad etmiş, sonra nazirlikdə fəaliyyət göstərən Heydər Əliyev Muzeyinə baxmışlar.

Daha sonra tədbir nazirliyin akt zalında davam etdirilmişdir. Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilmişdir.

Naxçıvan Muxtar Respublikasının milli təhlükəsizlik naziri, general-leytenant Vəli Ələsgərov şəxsi heyəti nazirliyin yaradılmasının 23-cü ildönümü münasibətilə təbrik etmiş, onlara ölkəmizin milli maraqlarının və təhlükəsizliyinin qorunması naminə xidməti fəaliyyətlərində uğurlar arzulamışdır.

Vəli Ələsgərov nazirliyin yaranması haqqında ətraflı danışaraq bildirmişdir ki, ümummilli lider Heydər Əliyev Naxçıvan Muxtar Respublikasında milli dövlətçiliyin bərpası uğrunda apardığı siyasi fəaliyyətində ölkəmizin müstəqilliyinin, ərazi bütövlüyünün və təhlükəsizliyinin qorunmasının mühüm əhəmiyyət kəsb etdiyini bildiyi üçün muxtar respublikanın sosial-iqtisadi inkişafı, siyasi cəhətdən möhkəmlənməsi ilə yanaşı, milli təhlükəsizlik məsələlərini də diqqət mərkəzində saxlayaraq xüsusi xidmət və hüquq-mühafizə orqanlarının yenidən qurulması işini özünəməxsus peşəkarlıqla həyata keçirmişdir. Ulu öndər xüsusi xidmət orqanlarımıza rəhbərlik etdiyi və Azərbaycanda siyasi hakimiyyətdə olduğu dövrlərdə milli təhlükəsizlik orqanlarının daim yenilənməsini, formalaşmasını yüksək peşəkarlıqla həyata keçirmiş, milli dövlətçilik ənənələrini yaşadacaq gələcək nəsillər üçün müqəddəs və zəngin irs yaratmışdır.

Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dövlətçiliyimizin möhkəmlənməsi və inkişafı naminə qətiyyətli və yorulmaz fəaliyyəti nəticəsində blokada şəraitində olmasına baxmayaraq, bu gün muxtar respublikamız dinamik sosial-iqtisadi, elmi inkişafa nail olaraq tərəqqi yolunda uğurla irəliləməkdədir. Bu inkişaf, tərəqqi bütün sahələrlə yanaşı, xüsusi xidmət orqanlarımızı da əhatə etmiş, milli təhlükəsizliyimizə yönələn təhdidlərin, həmçinin cinayətkar fəaliyyətlərin qarşısının alınmasında mühüm rol oynamışdır. Muxtar respublika rəhbərinin qayğısını daim üzərində hiss edən nazirliyin fəaliyyətinin səmərəliliyinə xidmət edən bütün zəruri tədbirlər həyata keçirilmişdir. Nazirliyin maddi-texniki bazası davamlı olaraq gücləndirilmiş, yeni inzibati binalar tikilərək istifadəyə verilmişdir. Bununla yanaşı, kadr heyətinin vətənpərvər, ixtisaslı, savadlı gənclərlə komplektləşdirilməsi, bacarıqlı kadrların irəli çəkilməsi, işin günün tələbləri və dəyişən əməliyyat şəraitinə uyğun səviyyədə təşkilinə və aparılmasına şərait yaratmışdır.

Bildirilmişdir ki, Naxçıvan Muxtar Respublikası Milli Təhlükəsizlik Nazirliyi keçən dövr ərzində hərtərəfli və dinamik inkişafa aparan uğurlu siyasi, sosial-iqtisadi siyasətin həyata keçirilməsində və sabit ictimai-siyasi mühitin yaradılmasında digər dövlət orqanları ilə əlaqəli fəaliyyət göstərmişdir. Keçən dövr ərzində nazirlik fəaliyyətinin bütün istiqamətləri üzrə əməliyyat şəraitini diqqət mərkəzində saxlamış, narkotik vasitələrin qaçaqmalçılığı, qeyri-leqal miqrasiya və mütəşəkkil cinayətkarlıqla bağlı digər sahələrdə də mübarizə ardıcıl olaraq davam etdirilmişdir.

Sonra çıxışlar olmuşdur.

Tədbirin sonunda xidməti fəaliyyətlərində fərqlənmiş əməkdaşlar mükafatlandırılmış, ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş sənədli film nümayiş etdirilmişdir.

**Naxçıvan Muxtar Respublikası Milli Təhlükəsizlik Nazirliyinin mətbuat xidməti**

## Qiymətli kağızlar bazarı mövcud iqtisadi sistemin əsas tərkib hissələrindəndir

***Son illər iqtisadiyyatın müxtəlif sahələrində həyata keçirilən uğurlu islahatlar ölkəmizi regionda aparıcı dövlətə çevirmişdir. İqtisadi və siyasi sahədə baş verən bu inkişaf dünya ölkələrinin Azərbaycana olan marağını daha da artırmışdır. Təbii ki, bu uğurlu inkişaf həyatın bütün sahələrinə müsbət təsir göstərməklə yanaşı, qiymətli kağızlar bazarına da təsirsiz ötüşməmişdir. Müasir beynəlxalq bazarın tərkib hissəsi olan qiymətli kağızlar bazarına diqqət günbəgün artır. Bu baxımdan dünya iqtisadiyyatının alternativsiz alətlərindən birini də məhz qiymətli kağızlar, qiymətli kağızlar bazarı və bu bazarda aparılan əməliyyatlar təşkil edir.***

Azərbaycan Respublikasında aparılan iqtisadi islahatlar əmtəə və xidmət bazarının təkmilləşdirilməsi ilə yanaşı, maliyyə bazarının da inkişafını zəruri edir. Adətən, maliyyə bazarı dedikdə qiymətli kağızlar bazarı nəzərdə tutulur. Dünyada baş verən iqtisadi böhran, ilk növbədə, qiymətli kağızlar bazarına təsir göstərir. Qiymətli kağızlar bazarı müasir iqtisadi bazarda bir sıra mühüm məsələləri həll edir. Belə ki, effektli sahələrə sərmayə axınını təmin edir, iqtisadiyyata çeviklik xüsusiyyəti verir ki, bu da, öz növbəsində, pul ehtiyatlarının tez bir zamanda bir sahədən digər sahəyə yönəltməklə iqtisadiyyatda struktur dəyişiklikləri apararaq iqtisadi inkişaf tempinin artırılmasına imkan verir. Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin və Milli Depozit Mərkəzinin yaradılması ölkəmizdə qiymətli kağızlar bazarının inkişafına təkan vermişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2005-ci il 22 sentyabr tarixli Sərəncamına əsasən, Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin Naxçıvan Muxtar Respublikası üzrə İdarəsi və Milli Depozit Mərkəzinin Naxçıvan Filialı yaradılmışdır.

Bu gün idarənin yaradılmasından 10 il ötür. İdarə tərəfindən bir sıra tədbirlər həyata keçirilmiş, maarifləndirmə işi aparılmış və nəticədə, vətəndaşlar "qiymətli kağızlar bazarı" haqqında kifayət qədər məlumatlara yiyələnmişlər. Bu dövrdə idarə tərəfindən 37 səhmdar cəmiyyətin səhm buraxılışı dövlət qeydiyyatına alınmışdır. Hazırda Naxçıvan Muxtar Respublikasının qiymətli kağızlar bazarında 41 açıq səhmdar cəmiyyət qeydiyyatdadır. Bu cəmiyyətlər öz fəaliyyətini günün tələbləri səviyyəsində quraraq istehsal, emal və xidmət sahələri üzrə fəaliyyət göstərirlər ki, bu da əhalinin iş yerləri ilə təmin olunması və maddi rifah halının yaxşılaşdırılmasına xidmət edir.

Muxtar respublikada quruculuq və abadlıq işlərinin sürətləndirilməsi, yaşayış binalarının müasir dizaynla tikilərək əhalinin istifadəsinə verilməsi davamlı xarakter almışdır. Gənc ailələrin mənzillə təmin olunması ipoteka kreditlərinin və ipoteka şəhadətnamələrinin istifadəsini və qeydiyyatını zəruri edir. Bu baxımdan idarə tərəfindən 2010-cu ildən başlayaraq bu günə qədər 190 ədəd ipoteka şəhadətnaməsinin qeydiyyatı və paralel olaraq 186 ədəd ipoteka şəhadətnaməsinin əlavə dövlət qeydiyyatı aparılmışdır.

Daxili istehsalı stimullaşdırmaq, istehlakçıların tələbatının yerli məhsullarla təmin olunması məqsədilə markalanmalı məhsulların istehsalçılarına daxili istehsal aksiz markalarının verilməsi də mühüm əhəmiyyət kəsb edir. İdarənin fəaliyyət göstərdiyi 10 il müddətində 9 milyon 500 min daxili istehsal tütün məmulatlarına tətbiq olunan, 3 milyon 650 min daxili istehsal pivə məmulatlarına tətbiq olunan və 8 milyon 300 min daxili istehsal alkoqollu içkilərə tətbiq olunan, ümumilikdə, 21 milyon 450 min aksiz markası istehsalçılara verilmişdir. Bundan başqa, muxtar respublika səhmdarlarını maraqlandıran məsələlər, onların hüquqlarının qorunması, qiymətli kağızlar bazarında yaranmış mübahisəli məsələlər idarənin aidiyyəti sektorları tərəfindən vaxtında araşdırılaraq qanunun tələbləri çərçivəsində öz həllini tapır.

Qiymətli kağızlar bazarının vacib atributlarından biri də peşəkar fəaliyyət növlərinin yaradılması və işinin təşkilidir. Belə ki, qiymətli kağızlar bazarında aparılan bütün əməliyyatlar, bağlanılan əqdlər, səhmlərin və səhmdarların reyestrinin aparılması peşəkar fəaliyyət növləri tərəfindən həyata keçirilir. Milli Depozit Mərkəzinin Naxçıvan Filialı tərəfindən muxtar respublikanın qiymətli kağızlar bazarında səhmdar cəmiyyətlərin qiymətli kağızlarının və səhmdarlarının reyestrinin aparılması təmin olunmuş, ötürücü sərəncamlar, depo hesabından çıxarışlar, reyestrdən çıxarışlar cəmiyyətlərə və səhmdarlara onların tələbləri əsasında təqdim olunmuşdur. Milli Depozit Mərkəzinin Naxçıvan Filialı tərəfindən bu günə qədər 35 min manat xidməthaqqı toplanılaraq dövlət büdcəsinə ödənilmişdir.

*Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin Naxçıvan Muxtar Respublikası üzrə İdarəsi və Milli Depozit Mərkəzi Naxçıvan Filialının kollektivləri bundan sonra da öz işlərini günün tələbləri səviyyəsində quracaq, yaradılmış şəraitdən istifadə edərək daha səmərəli fəaliyyət göstərəcəklər.*

**"Şərq qapısı"**

***2015-ci ilin ilk səkkiz ayı ərzində muxtar respublikada fəaliyyət göstərən bank sektoru özünün müştəri seqmentini artırmaq məqsədilə, ilk növbədə, infrastruktur imkanlarını genişləndirib.***

## Banklar tərəfindən infrastruktur imkanlarının genişləndirilməsi diqqətdə saxlanılır

Belə ki, cari ilin yanvar-avqust ayları ərzində banklar tərəfindən müştərilərə təklif olunan ödəniş kartlarının sayında artım müşahidə olunub. Hazırda belə kartların sayı 216 min 37 ədəddir. Bu göstərici ilin əvvəli ilə müqayisədə 8 min 376 ədəd çoxdur. Bu isə muxtar respublika sakinlərindən hər iki nəfərdən birinin kartla təmin edilməsi deməkdir.

Digər artımın müşahidə olunduğu infrastruktur alətlərindən biri də POS-terminal aparatlarıdır ki, cari ilin əvvəli ilə müqayisədə banklar tərəfindən 105 ədəd əlavə POS-terminal aparatı quraşdırılıb. Quraşdırılmış POS-terminalların 489 ədədi Naxçıvan şəhəri, 525 ədədi isə rayon və kənd mərkəzlərinin payına düşməklə, ümumilikdə, muxtar respublika üzrə 1014 ədəd təşkil edib.

Bankomatların da sayında artım olub. İlin əvvəlindən 4 ədəd yeni bankomat aparatı quraşdırılıb. Banklar tərəfindən bu müddət ərzində iki yeni MİLLİ ÖN (ödəniş terminalı) quraşdırılıb ki, bu terminal vasitəsilə sakinlər "Cash to cart" əməliyyatını (başqa bir ödəniş kart hesabına nağd pulun göndərilməsi), mobil telefonlarda balansın artırılması, kommunal ödənişlərin aparılması, bank kreditlərinin ödənilməsi və sair bu kimi əməliyyatları həyata keçirə bilərlər.

Cari ildə bank infrastrukturunun təkmilləşdirilməsi banklara edilən müraciətlərin sayını da artırıb. Bank hesablarının sayında ilin əvvəli ilə müqayisədə 6 min 737 ədəd artım olub. 2015-ci ilin yanvar-avqust ayları ərzində açılmış bank hesablarının sayı 7 min 791 ədəd təşkil edib ki, bunların da 47 ədədi hüquqi, 7 min 744 ədədi isə fiziki şəxslər üçün açılıb. Açılmış bank hesablarından 7 min 737 ədədi aktiv hesab olub. Aktiv hesabların isə 47 ədədi hüquqi, 7 min 690 ədədi fiziki şəxslərə məxsusdur.

**Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin mətbuat xidməti**

# Görkəmli bəstəkar Vasif Adıgözəlovun 80 illik yubileyi qeyd olunub

*Sentyabrın 21-də Naxçıvan Dövlət Musiqili Dram Teatrında görkəmli bəstəkar Vasif Adıgözəlovun 80 illik yubileyinə həsr olunmuş tədbir keçirildi.*





Muxtar respublikamızın mədəniyyət müəssisələri kollektivlərinin, həmçinin ali və orta ixtisas təhsili müəssisələrində müvafiq ixtisaslar üzrə təhsil alan tələbələrin iştirakı ilə keçirilən tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri, sənətşünaslıq üzrə fəlsəfə doktoru Natavan Qədimova açdı. Bildirdi ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri "Vasif Adıgözəlovun 80 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında" 2015-ci il 18 fevral tarixdə Sərəncam imzalamışdır. Təsdiq edilmiş Tədbirlər Planına əsasən, muxtar respublikada "Azərbaycan bəstəkarlığının inkişafında Vasif Adıgözəlovun rolu" mövzusunda konfrans keçirilmiş, görkəmli sənətkarın bəstəkar, pedaqoq və fəal ictimai xadim kimi hərtərəfli fəaliyyətinə həsr olunmuş tədbirlər təşkil edilmişdir.

"Bu gün 80 illik yubileyini qeyd etdiyimiz görkəmli bəstəkar Vasif Adıgözəlov Azərbaycan musiqi sənətində özünəməxsus dəst-xətti və üslubu olan sənətkarlarımızdandır. Azərbaycan bəstəkarlıq məktəbinin ən yaxşı ənənələri üzərində yüksələn, öz yaradıcılığı ilə Şərqin və Qərbin mənəvi dəyərlərinin yüksək bədii sintezinə nail olan bəstəkarımız Azərbaycan musiqi mədəniyyətində xüsusi rolu olmuş bir nəslin, Adıgözəlovlar nəslinin nümayəndəsidir", – deyən Natavan Qədimova qeyd etdi ki, professor Vasif Adıgözəlov böyük sənətə 60-cı illərdə gəlmiş və yaradıcılığı boyu ümumtürk epos təfəkkürünü, yüksək Vətən əxlaqını və milli-mənəvi özünüdərki ifadə edərək heç kəsə bənzəməyən fərdi sənət üslubunu yaratmışdır.

Bildirildi ki, bəstəkarın sənət aləminə ilk və uğurlu debütü 1956-cı ildə Azərbaycan Bəstəkarlar İttifaqının I qurultayında səslənən simfonik poema və sonatası olub. 1959-cu ildə Vasif Adıgözəlov Azərbaycan Bəstəkarlar İttifaqına üzv qəbul edilir və 1962-ci ildə C. Məmmədquluzadənin eyniadlı tragikomediyası əsasında "Ölülər" operasını yazır. Bir qədər sonra Mirzə Fətəli Axundzadənin "Hacı Qara" komediyası əsasında R.Mustafayevlə birlikdə "Xəsis" operettasını yazan bəstəkar daha sonralar da bu janra müraciət edərək məşhurluq qazanır. Artıq 70-ci illərin əvvəllərində tanınan bəstəkar "Nənəmin şahlıq quşu" və "Ayrılaq, evlənərik" operettalarını, daha sonralar isə "Lənət şeytana", "Aldın payını, çağır dayını" operettalarını yaradır.

Bəstəkarın 1968-ci ildə yaratdığı ikinci simfoniya da ona böyük şöhrət gətirmişdir. Yaradıcılığında bu janra üstünlük verən bəstəkar 4 simfoniya yazmış və Azərbaycan simfonizminin mürəkkəb konseptual inkişafının müasir mərhələsində yeni bir səhifə açmışdır. Bəstəkar deyirdi: "Məhz simfoniyada şəxsiyyətin formalaşması prosesi digər janrlara nisbətən daha parlaq ifadə olunur".

Nazir qeyd etdi ki, görkəmli bəstəkar yaradıcılığı boyu bir sıra dram əsərlərinə, kinofilmlərə, sənədli və cizgi filmlərinə də musiqilər bəstələmişdir. Bəstəkarın yaradıcılığından danışarkən onun mahnılarını yaddan çıxartmaq olmaz. Onun xalq tərəfindən sevilən, yaddaqalan nəğmələri bu gün də dillər əzbəridir. Ötən əsrin 70-ci illərindən başlayaraq fəaliyyətini ümumittifaq miqyasında genişləndirən Vasif Adıgözəlov Moskvada, Ukraynada həm təşkilati, həm də yaradıcı çıxışlar edir. 80-ci illərdən başlayaraq yeni ideya-estetik istiqamətlərdə və janrlarda intensiv axtarışlar aparan böyük sənətkar Azərbaycanın tarixi taleyi ağır sınaqla üz-üzə gələndə, tarixi düşmənlər torpağımıza göz dikəndə vətənpərvərliyi əks etdirən "Odlar yurdu" və "Qarabağ şikəstəsi" oratoriyalarını yaradır. Bu yeni janr onun üslubunu ideya-emosional, bədii-fəlsəfi baxımdan daha da zənginləşdirir.

Vasif Adıgözəlovun 1995-ci ildə öz novator yaradıcılığı ilə XX əsr Azərbaycan professional musiqisinin yeni zirvələrini müəyyənləşdirən bəstəkar kimi "Şöhrət" ordeni ilə təltif olunduğunu deyən Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri qeyd etdi ki, görkəmli bəstəkarın musiqisinin bədii-estetik məziyyətlərində öz əksini tapan tarixilik və müasirliyin vəhdəti, milli müəyyənlik, alliterasiyaların mozaik düzümü, ritm variasiyaları, monumentallıq və konseptuallıq əsas qayə təşkil edir. Onun musiqisi Azərbaycan xalqının milli qürurunu özündə əks etdirir.

Bəstəkarın Azərbaycan musiqisi tarixindəki xidmətləri daim dövlət tərəfindən diqqət mərkəzində olmuş, müxtəlif illərdə "Əməkdar incəsənət xadimi", "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür. Professor Vasif Adıgözəlov 1990-cı ildə Azərbaycan Bəstəkarlar İttifaqının I katibi seçilmişdir.

Vurğulandı ki, hər bir sənətkarın sənəti onun şəxsiyyətindən, istedadından, mənəvi dünyasından və intellektindən doğur. Bu mənada, Vasif Adıgözəlov yaradıcılığı öz varlığı ilə Azərbaycan musiqi sənəti inciləri arasında yüksək zirvələrdən birini tutur.

Sonra Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının üzvü Yaşar Xəlilov "Vasif Adıgözəlov irsi Azərbaycanın milli-mədəni sərvəti kimi", Naxçıvan Dövlət Universitetinin Musiqişünaslıq kafedrasının müdiri, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent İnara Məhərrəmova "Vasif Adıgözəlov yaradıcılığının janr rəngarəngliyi" mövzularında çıxış etdilər. Çıxışlarda qeyd olundu ki, sənətkar ömrü heç bir zaman tükənmir və onun yaratdığı sənət aləmi əlçatmaz bir ümmana bənzəyir. Bu ümmanın bir zərrəsi sənətkar ömrünü əbədiləşdirir. Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndələrindən biri olan Vasif Adıgözəlov da belə sənətkar ömrü yaşamış, milli musiqi mədəniyyətimizə bir-birindən dəyərli sənət nümunələri bəxş etmişdir. Onun mahnılardan tutmuş irihəcmli simfonik əsərlərədək müxtəlif musiqi janrlarını əhatə edən yaradıcılığı öz yüksək peşəkarlıq səviyyəsi və musiqi dilinin orijinallığı ilə diqqəti cəlb edərək geniş dinləyici kütlələrinin rəğbətini qazanmışdır.

Tədbir görkəmli bəstəkarın 80 illik yubileyinə həsr olunmuş konsert proqramı ilə davam etdi. Naxçıvan Dövlət Filarmoniyasının mahnı və rəqs ansamblının, filarmoniyanın xalq çalğı alətləri, birləşmiş kamera və estrada orkestrinin, xor və solistlərinin ifasında səsləndirilən musiqi nömrələri tamaşaçıların gurultulu alqışları ilə qarşılandı.

**Rauf ƏLİYEV**

# Naxçıvanşünaslıq Mərkəzinə müraciət edənlərin sayı artır



**Bu gün Naxçıvanın tarixi, zəngin mədəniyyəti, elmi-ədəbi mühiti dərindən araşdırılır, sanballı tədqiqat materialları nəşr edilir. Bu dəyərli mənbələrin qorunması və təbliği yeni tədqiqat işlərinin aparılması və gələcək nəsillərə çatdırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin yaradılması da bu məqsədə xidmət edir. Mərkəzin fondu hər ötən il daha da zənginləşdirilir, Naxçıvan haqqında dəyərli mənbələr elm adamlarına təqdim olunur.**

2015-ci ilin birinci yarısında mərkəzdə "Kənd təsərrüfatı ili" və "İnkişafın 20 ili" mövzularında bir sıra tədbirlər təşkil olunmuş, Naxçıvanın qədim və yeni tarixi, coğrafiyası, ədəbiyyatı, folkloru, milli-mənəvi dəyərləri mövzularında açıq dərslər keçilmişdir. Yanvar ayında Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi ilə birgə proqram hazırlanmış, bu məqsədlə keçirilən 19 tədbirdə ali, orta ixtisas və ümumtəhsil müəssisələrinin 375 tələbə və şagirdi iştirak etmişdir.

Mərkəzin oxucu sayı ilbəil artır. Fəaliyyətə başladığı gündən 2015-ci ilin iyul ayınadək Naxçıvanşünaslıq Mərkəzinin xidmət şöbəsində 716 nəfərə oxucu bileti verilmişdir. Ötən dövrdə mərkəzin fondu və elektron bazası əldə olunan yeni materiallar hesabına daha da zənginləşdirilmişdir. 2015-ci ilin ilk altı ayı ərzində mərkəzdə 158 nüsxə çap materialının uçotu aparılmış, onlardan 120-si kitab, 10-u dövri mətbuat və 28-i miniatür kitab olmuşdur. Kitablardan 10-u təbiət, 33-ü tarix, 4-ü arxeologiya, 2-si etnoqrafiya, 5-i kənd təsərrüfatı, 21-i iqtisadiyyat, 11-i siyasət, 6-sı dövlət və hüquq, 2-si mədəniyyət, 11-i dilçilik, 1-i incəsənət, 4-ü isə psixologiya sahələrinə aiddir. Fonda yeni daxil olan kitablardan 96-sı Azərbaycan dilində, 24-ü isə xarici dildədir. Ümumiyyətlə, hazırda Naxçıvanşünaslıq Mərkəzinin fondunda 3250 sayda çap materialları saxlanılır. Onlardan 2 min 452-si kitab, 28-i miniatür kitab, 92-si avtoreferat və 678-i qəzet və jurnallardır. Bu mənbələr, əsasən, Naxçıvanın qədim və zəngin tarixini, mədəniyyətini, sosial-iqtisadi inkişafını, ictimai-siyasi həyatını, həmçinin Naxçıvanın görkəmli şəxsiyyətlərinin, elm adamlarının, şair və yazıçılarının həyatı və yaradıcılığını əks etdirir.

Qeyd olunan dövrdə mərkəzin arxiv fonduna Naxçıvanın tarixi, ictimai-siyasi və sosial-mədəni həyatını əks etdirən 81 yeni material daxil olmuş, qeydiyyatda olan materialların sayı 633-ə çatdırılmışdır. Həmçinin burada mətbuat materialları toplanmış və Naxçıvanşünaslıq üçün mühüm əhəmiyyət kəsb edən materiallar seçilərək mərkəzin elektron bazasında və kartotekalarda yerləşdirilmişdir.

İnformasiya texnologiyalarının tətbiqi Naxçıvanşünaslıq Mərkəzinin fəaliyyətinin müasir tələblər səviyyəsində təşkilinə imkan verir. Mərkəzin internet saytının fəaliyyət göstərməsi, kitab və digər məlumatların elektron bazasının yaradılması, onların geniş oxucu kütləsinə çatdırılması baxımından mühüm əhəmiyyət daşıyır. Ötən dövrdə kitabsaxlayıcı şöbəsindəki ədəbiyyatların elektron variantı hazırlanmış və Naxçıvanşünaslıq Mərkəzinin internet saytında yerləşdirilmişdir. Təkcə bu ilin birinci yarımilində 142-si Azərbaycan dilində, 33-ü isə xarici dildə olmaqla, 175 adda kitabın elektron variantı hazırlanmışdır. Onlardan 139-u filologiya və bədii ədəbiyyat, 2-si təbiət, 30-u ictimai və humanitar elmlər, 2-si kənd təsərrüfatı, 2-si isə mədəniyyət, elm və maarif sahələrindən bəhs edir. Bu mənbələr Naxçıvanın elm adamları tərəfindən daim izlənmiş, bu günədək internet resurslarına 9 min 400-dən çox istinad olunmuşdur ki, bunun da 1012-si bu ilin ötən dövrünün payına düşür.

Bu gün Naxçıvanşünaslıq Mərkəzi təkcə Naxçıvanın yox, bütövlükdə Azərbaycan elmi mühiti üçün mühüm elmi-tədqiqat mərkəzidir. Fəaliyyətə başladığı gündən mərkəzə Azərbaycanın digər bölgələrindən də alim və tədqiqatçılar müraciət etmiş, elektron sorğular göndərilmişdir. Ötən dövrdə mərkəzə daxil olan bütün müraciətlərə baxılmış, sorğulara vaxtında və dolğun cavab verilmişdir.

Naxçıvanşünaslıq Mərkəzinin əməkdaşları bundan sonra da öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcək, fondu və elektron bazanı daha da zənginləşdirəcək, muxtar respublika elminin inkişafına öz töhfələrini verəcəklər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzi**

*Mərkəzin açılışı ilə əlaqədar keçirilən tədbirdə universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov çıxış edərək Avropa təhsil prosesini özündə əks etdirən TEMPUS proqramının mühüm əhəmiyyət daşıdığı diqqətə çatdırıb.*

# Naxçıvan Dövlət Universitetində Avropa Birliyi Araşdırmaları Mərkəzi açılıb

Rektor bildirib ki, rəhbərlik etdiyi ali təhsil ocağının TEMPUS proqramı ilə qarşılıqlı əməkdaşlıq şəraitində 7 layihənin iştirakçısı olması, Türkiyə universitetləri ilə qarşılıqlı müəllim və tələbə mübadiləsini nəzərdə tutan "Mövlana" Mübadilə Proqramı çərçivəsində həyata keçirilən tədbirlər, ERASMUS MUNDUS, ERASMUS-HUMERÍA proqramları təhsilin və tədrisin müasir tələblər səviyyəsində qurulmasına xidmət edir.

Layihənin Xəzər Universiteti üzrə koordinatoru Baba Bayramlı çıxışında layihə çərçivəsində görülən işlərdən və qarşıda duran vəzifələrdən danışıb. Konfrans iştirakçılarına Azərbaycanın tərəfdaş universitetlərində Avropaşünaslıq proqramı üzrə kurikulumları araşdırdıqdan sonra gəldikləri nəticələr barədə məlumat verib.

Universitetin tədris işləri üzrə prorektoru, "Avropa Birliyi araşdırmaları sahəsində tədris planlarının işlənib hazırlanması və qabiliyyətlərin inkişaf etdirilməsi" adlı layihənin Naxçıvan Dövlət Universiteti (NDU) üzrə koordinatoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Surə Seyid ötən müddət ərzində görülən işlərdən bəhs edib. Qeyd olunub ki, layihə çərçivəsində gerçəkləşən səfərlər, qarşılıqlı işbirliyi və təcrübə mübadiləsi universitetdə tədrisin və təhsilin inkişafına geniş imkanlar açıb. Belə ki, tədris planları Avropa kredit transfer sisteminə uyğunlaşdırılıb, "Avropaşünaslıq" fənni seçmə fənn kimi Beynəlxalq münasibətlər ixtisasının tədris planına əlavə olunub və fənnin yüksək səviyyədə tədrisi üçün proqram və dərs vəsaiti hazırlanıb. Layihənin gələcək fəaliyyət istiqaməti universitet tələbələrinin Avropanın 4 universitetində bir aylıq təlim kurslarını təşkil etməkdir.

TEMPUS proqramında nəzərdə tutulduğu kimi, Xəzər Universitetinin koordinator olduğu və NDU-nun tərəfdaş kimi iştirak etdiyi "Avropa Birliyi araşdırmaları sahəsində tədris planlarının işlənib hazırlanması və qabiliyyətlərin inkişaf etdirilməsi" layihəsi çərçivəsində yaradılan mərkəz universitetin Beynəlxalq münasibətlər və xarici dillər fakültəsi nəzdində fəaliyyət göstərəcək.

Mərkəzin yaradılmasında əsas məqsəd müasir Avropa təhsil təcrübəsini universitetdə tətbiq etməkdir. Avropa Birliyi Araşdırmaları Mərkəzi kompüterlərlə və müasir texniki avadanlıqlarla təchiz olunub. Burada yüksəksürətli internet şəbəkəsi mövcuddur. Yaxın günlərdə Avropada nəşr edilmiş ən son dərs vəsaitləri və proqramlarla təchiz olunacaq mərkəz universitetdə Azərbaycan və Avropa təhsil əlaqələrinin inkişafına öz töhfəsini verəcək.

"Avropa Birliyi araşdırmaları sahəsində tədris planlarının işlənib hazırlanması və qabiliyyətlərin inkişaf etdirilməsi" layihəsi NDU-da 2012-ci ildən həyata keçirilir. Ötən dövr ərzində universitetin Tədris şöbəsinin əməkdaşlarının və müvafiq kafedraların müəllimlərinin İtaliyanın Genovo, Polşanın Lodz, Portuqaliyanın Lusofona və Niderland Krallığının Leiden universitetlərinə səfərləri olub, təcrübə mübadiləsi əsasında tədris planları, birgə dərs vəsaitləri hazırlanıb və onlayn mühazirələr təşkil edilib.

**Mina QASIMOVA**

## Dövlət proqramı necə icra olunur?

# Muxtar respublika əhalisi keyfiyyətli ərzaq məhsulları ilə təmin edilir

***Son illər dünyanın aparıcı ölkələrinin maliyyə problemləri ilə üzləşməsi, habelə əhali sayının çoxalması və digər bu kimi amillər əsas ərzaq məhsullarının qıtlığına və dünya bazarında qiymət artımına səbəb olmaqdadır. Artıq bəzi ölkələrdə ərzaq qıtlığı problemi real təhlükəyə çevrilmiş və ərzaq ehtiyatları minimum həddə çatmışdır. Etibarlı ərzaq təminatı isə hər bir ölkənin iqtisadi sabitliyinin və sosial dayanaqlılığının, dövlətin iqtisadi təhlükəsizliyinin qarantıdır.***

Aparılan araşdırmalar zamanı son illər dünyada ərzaq istehsalının illik artımının azalması tendensiyası müşahidə edilir və bu azalmanın növbəti illərdə də davam edəcəyi proqnozlaşdırılır. Günümüzdə müşahidə olunan qlobal istiləşmə və iqlim dəyişikliyi insanların ərzaq məhsullarına olan tələbatının ödənilməsində əhəmiyyətli rol oynayan kənd təsərrüfatı sektoruna daha çox mənfi təsir göstərməkdədir. Kənd təsərrüfatını iqlim dəyişikliklərinə adaptasiya etmək qlobal ərzaq təhlükəsizliyinin təmin olunması və ekosistemi qorumaq baxımından vacib olmaqla yanaşı, həm də xeyli xərc tələb edir. Bütün bu faktlar onu göstərir ki, hazırda ərzaq təhlükəsizliyi probleminin səmərəli həlli dünyada gedən sürətli qloballaşma prosesi fonunda ən mühüm məsələlərdəndir.

Ümummilli lider Heydər Əliyev hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışarkən böyük uzaqgörənliklə ilk dəfə olaraq muxtar respublikada aqrar islahatların həyata keçirilməsinə başlamışdır. 6 aprel 1992-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisi tərəfindən qəbul olunmuş “Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozlar haqqında”, eləcə də “Rentabelli işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi barədə təkliflər haqqında” qərarlar aqrar sahənin inkişafı ilə yanaşı, etibarlı ərzaq təminatının yaradılmasına da öz təsirini göstərmişdir. Muxtar respublikada torpaq islahatının uğurla başa çatdırılması, kənd təsərrüfatı istehsalçılarına yardım mexanizmlərinin formalaşdırılması, yeni emal müəssisələrinin yaradılması və həyata keçirilən digər tədbirlər nəticəsində ərzaq məhsullarının istehsalı əhəmiyyətli dərəcədə artmışdır. İstehsalın stimullaşdırılması və satış üçün məhsulların çeşidinin artırılması istiqamətində görülən tədbirlər yeni iş yerlərinin açılmasına, əhalinin məşğulluq səviyyəsinin yüksəlməsinə imkan vermişdir.

Xalqımızın böyük oğlu Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi illərdə də ölkənin ərzaq təhlükəsizliyi məsələsini daim diqqət mərkəzində saxlamış və bu məsələnin gələcək nəsillər üçün olduqca vacib və aktual olduğunu nəzərə alaraq, ərzaq təhlükəsizliyi məsələsini dövlətçilik strategiyasının əsas elementləri sırasına daxil etmişdir.

Ümummilli liderin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də ölkə əhalisinin ərzaq məhsulları ilə etibarlı təminatı məsələsini daim diqqət mərkəzində saxlayır və bu istiqamətdə xüsusi dövlət tədbirləri həyata keçirilir. Naxçıvan Muxtar Respublikasında da ərazi təhlükəsizliyinin təmin olunması sahəsində mühüm işlər görülür.

Əldə olunmuş nailiyyətlərin əsasında muxtar respublikada sahibkarlığın inkişafına geniş meydan verilməsini və bu sahəyə dövlət yardımının ilbəil artırılmasını göstərmək olar. Son illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə muxtar respublikada kənd təsərrüfatının inkişafı sahəsində genişmiqyaslı layihələr həyata keçirilmişdir. Belə ki, aparılan meliorasiya və irriqasiya tədbirlərinin genişləndirilməsi, taxıl və soyuducu anbarların tutumlarının artırılması, istixana komplekslərinin, quşçuluq və balıqçılıq təsərrüfatlarının, meyvə-tərəvəz emalı müəssisələrinin işə salınması kənd təsərrüfatının sürətli inkişafına əlverişli şərait yaratmışdır. Toxumçuluq və tingçiliklə məşğul olan təsərrüfatlara subsidiyaların ödənilməsi, yanacaq-sürtgü materiallarına görə verilən yardımların 25 faiz artırılaraq 50 manata çatdırılması, istifadə olunan gübrələrin 70 faizinin pulsuz verilməsi, satılan texnikaların dəyərinə 40 faiz güzəşt tətbiq edilməsi kənd təsərrüfatı ilə məşğul olan sahibkarlar üçün əsaslı stimul olmuşdur.

Regionumuzda kənd təsərrüfatının inkişafı ilə bağlı görülən işlər ərzaq təhlükəsizliyinin təmin olunmasında, emal müəssisələrinin xammalla təchizatında mühüm rol oynayır. Bu cəhətdən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 17 sentyabr 2008-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş “2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı” mühüm əhəmiyyət kəsb edən dövlət sənədidir.

Aparılan məqsədyönlü iqtisadi siyasət aqrar sektorun inkişafına güclü təkan verməklə istehsalın artmasına, məhsul bolluğunun yaranmasına səbəb olmuşdur. 2015-ci ilin yanvar-avqust ayları ərzində muxtar respublikada 253 milyon 812 min manatdan çox kənd təsərrüfatı məhsulunun istehsal olunması buna sübutdur.

Muxtar respublikada kənd təsərrüfatının aparıcı sahələrindən biri əkinçilikdir. Qədim diyarın torpaq mülkiyyətçiləri bu sahədə zəngin təcrübəyə malikdirlər. Torpaq mülkiyyətçilərinə göstərilən hərtərəfli qayğı, eləcə də iqlim və coğrafi şərait əkinçilikdə uğurlar qazanılmasını təmin etmişdir. Elə bu səbəbdəndir ki, 2015-ci ilin məhsulu üçün 61 min 414 hektar sahədə əkin aparılmışdır. Bu da 2008-ci illə müqayisədə 2505,3 hektar çoxdur.

Aqrar sahədə nəzərdə tutulan xidməti işlərin yerinə yetirilməsini sürətləndirmək, sahibkarların zəhmətini yüngülləşdirmək, onları lazımi texnika ilə vaxtında və güzəştli şərtlərlə təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 28 yanvar tarixli Sərəncamı ilə yaradılmış “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti aqrar bölmənin kənd təsərrüfatı texnikaları ilə təchizatını, müxtəlif servis xidmətlərinin göstərilməsini, torpaq mülkiyyətçilərinə güzəştli qiymətlərlə mineral gübrələrin satışını həyata keçirir.

Əvvəldə də qeyd etdiyimiz kimi, müasir dövrdə əhalinin ərzaqla təminatı başəriyyətin ən qlobal problemlərindəndir. Problemin həllində taxılçılığın inkişaf etdirilməsi əsas yerlərdən birini tutur. 2008-ci ildə muxtar respublika üzrə 32441,2 hektar sahədə taxıl əkilmişdirsə, 2015-ci ildə əkin sahələri 36237 hektara çatdırılmışdır ki, bu da həmin illə müqayisədə 2795,8 hektar çoxdur. Bu il zəmilərdən 106 min 282 ton məhsul toplanmışdır. Bu, 2008-ci illə müqayisədə 23 min 718 ton, ötən illə müqayisədə isə 3212 ton çoxdur.

Ərzaq təhlükəsizliyinin başlıca şərtlərindən biri dövlət ərzaq ehtiyatlarının təşkili və onların səmərəli idarə olunması, fövqəladə hallara yüksək səviyyədə hazırlığın təmin edilməsi, təbii fəlakətlərin nəticələrinin qısa zamanda aradan qaldırılmasından ibarətdir. Muxtar respublikada taxıl istehsalının artımı ilə yanaşı, taxıl ehtiyatının yaradılması imkanları da yaxşılaşdırılmış, tutumu 27 min ton olan uzunmüddətli və 43 min 400 ton olan qısamüddətli taxıl ehtiyatı anbarları, 17 taxıl emalı müəssisəsi yaradılmışdır.



Muxtar respublikada iqtisadi fəaliyyətin bütün sahələri ilə yanaşı, kənd təsərrüfatının dinamik inkişafı üçün də səmərəli kredit mexanizmi formalaşdırılmışdır. 2015-ci ilin yanvar-avqust ayları ərzində kənd təsərrüfatının inkişafı üçün torpaq mülkiyyətçilərinə banklar və bank olmayan kredit təşkilatları tərəfindən 14 milyon 552 min manatdan artıq kredit verilmişdir.



Muxtar respublikada taxılçılıqla yanaşı, kartofçuluğun inkişafına da ciddi diqqət yetirilir. Bir zamanlar regionda bu məhsula olan tələbat idxal hesabına ödənilirdi. İkinci çörək sayılan kartofa olan tələbatın ödənilməsi məqsədilə görülən işlər bu cəhətdən diqqətəlayiqdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 14 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş “2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”nda torpaqlardan səmərəli istifadə olunması, investisiyaların yatırılması, müxtəlif servis mərkəzlərinin yaradılması, daxili bazarın qorunması, tələbata uyğun keyfiyyətli məhsul istehsalının dəstəklənməsi kimi zəruri tədbirlərin görülməsi məsələləri qarşıya qoyulmuşdur. Stimullaşdırıcı təsirə malik olan bu tədbirlərin nəticəsidir ki, kartof əkini sahələri ildən-ilə genişləndirilir. Daxili bazarın kartofla təminatında idxaldan asılılığın azaldılması, tələbatın yerli istehsal hesabına ödənilməsini təmin etmək məqsədilə muxtar respublikada əlverişli torpaq sahələri ayrılmışdır. Bu il 2967 hektar sahədə kartof əkilmişdir ki, bu da 2008-ci illə müqayisədə 454 hektar, 2012-ci illə müqayisədə isə 136 hektar çoxdur.









Əhalinin qış aylarında faraş tərəvəz məhsulları ilə təmin olunması mühüm məsələlərdən biridir. Bu sahəyə göstərilən qayğı nəticəsində bu gün muxtar respublikada tərəvəz yetişdirilən istixana komplekslərinin ümumi sahəsi 100 min kvadratmetri ötmüşdür. Bu il ümumi sahəsi 2860 kvadratmetr olan 4 istixana kompleksi istifadəyə verilmiş, ümumi sahəsi 5000 kvadratmetr olan 2 istixana kompleksinin qurulması isə davam etdirilməkdədir.

Əhalinin müxtəlif kənd təsərrüfatı məhsullarına olan tələbatının ödənilməsində soyuducu anbarların yaradılmasının da böyük rolu vardır. Bu anbarlar bir tərəfdən istehsal olunan məhsulların satışı ilə əlaqədar ortaya çıxan problemləri aradan qaldırmağa kömək edir, digər tərəfdən əhalinin ilboyu keyfiyyətli yerli məhsullarla təmin olunmasına imkan verir. Son illər əhalinin meyvə-tərəvəz məhsullarına olan tələbatının daha dolğun ödənilməsi məqsədilə muxtar respublikada ümumi tutumu 12 min 610 ton olan 21 soyuducu anbar quraraq istifadəyə verilmişdir.

Meyvə-tərəvəz və digər ərzaq məhsullarının istehsalında artıma nail olunması üçün emal sənayesinin inkişafı ilə bağlı tədbirlər müəyyənləşdirilmişdir. Qeyd olunanlarla yanaşı, kənd təsərrüfatı məhsullarının ixracını artırmaq, xarici bazarlarda rəqabətqabiliyyətli məhsul satmaq üçün istehsala və ixraca stimul yaradan digər tədbirlərin həyata keçirilməsi davam etdirilir.

Kənd təsərrüfatında əkinçiliklə yanaşı, heyvandarlıq da sürətlə inkişaf edir. Heyvandarlıqda islahatlar 1992-ci ildən başlamışdır. Bu sahədə islahatların aparılması çox zəruri idi, çünki 1990-cı ildən başlayaraq hər il orta hesabla mal-qaranın sayı 4 min baş, xırdabuynuzlu heyvanların sayı 10 min baş, ət istehsalı 1,5 min ton, süd istehsalı isə 6 min ton azalırdı. İslahatlar nəticəsində mal-qaranın sayında və heyvandarlıq məhsullarının istehsalında ciddi artım olmuşdur. Belə ki, 2008-ci il 1 yanvar tarixə 2001-ci ilin müvafiq dövrü ilə nisbətdə mal-qaranın sayı 20 min baş, xırdabuynuzlu heyvanların sayı isə 138 min baş artmışdır.

1 iyul 2015-ci il tarixə muxtar respublikada 116 min 161 baş iribuynuzlu, 723 min 290 baş xırdabuynuzlu heyvan olmuşdur. 2008-ci illə müqayisədə iribuynuzluların sayında 20 min 129 baş, xırdabuynuzlu heyvanların sayında isə 146 min 353 baş artım olmuşdur.

Mal-qaranın baş sayının artımı məhsul istehsalına da təsirini göstərmişdir. Belə ki, 2015-ci ilin yanvar-avqust ayları ərzində muxtar respublika üzrə diri çəkidə 12,6 min ton ət, 60,7 min ton süd istehsal edilmişdir. Ötən ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 3,2 faiz, süd istehsalı 1,4 faiz artmışdır.

“2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”nın əsas məqsədi muxtar respublika əhalisinin hər bir nəfərinin sağlam və məhsuldar həyat tərzi üçün onun qəbul edilmiş normalara uyğun ərzaq məhsulları ilə tam təmin edilməsinə nail olmaqdır. Aparılan məqsədyönlü tədbirlər nəticəsində 2014-cü ili uğurla başa vurduq. Lakin əldə olunan nailiyyətlər bizi arxayınlaşdırmır. 2015-ci ilin “Kənd təsərrüfatı ili” elan edilməsi məsuliyyətimizi daha da artırmışdır. Ötən il dekabr ayının 27-də keçirilən dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onuncu sessiyasında Ali Məclisin Sədri demişdir: ***“2015-ci ildə muxtar respublikada tarixən formalaşmış təsərrüfatçılıq ənənələri inkişaf etdirilməli, əhalinin ərzaq məhsulları ilə təminatı davamlı xarakter almalı, emal müəssisələri xammalla fasiləsiz təchiz edilməlidir. Muxtar respublikanın ərzaq təhlükəsizliyi və meyvə-tərəvəzçiliyin inkişafı ilə bağlı qəbul olunmuş dövlət proqramlarının icrası da kənd təsərrüfatına xüsusi diqqət yetirilməsini tələb edir”.***

*Ötən illərlə müqayisə bir daha göstərdi ki, muxtar respublikada əhalinin təhlükəsiz ərzaqla davamlı təmin olunması üçün mühüm tədbirlər görülmüş və görülməkdədir. Qarşıda duran vəzifə isə insanların öz işlərinə məsuliyyətlə yanaşması, torpağa daha ürəkdən bağlanmasıdır.*

**Tural HAQVERDİYEV**
**Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdiri**

*Muxtar respublikamızda əhalinin və təsərrüfat subyektlərinin elektrik enerjisinə, təbii qaza və istiliyə olan tələbatının ödənilməsinə, infrastruktur sahələrinin qış mövsümündə normal fəaliyyətinin təmin olunmasına xüsusi diqqət yetirilir. Hər il Naxçıvan Muxtar Respublikası Ali Məclisində payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirələrdə bu məsələlərin həlli yolları müəyyənləşdirilir və qarşıya qoyulmuş vəzifələr aidiyyəti qurumlar tərəfindən icra edilir.*

## Uyğunluq sertifikatı olmayan elektrik və qaz cihazlarının satışı və istifadəsi qanunla qadağandır

Avqust ayının 28-də keçirilmiş analoji müşavirədə Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinə verilmiş tapşırıqlar standarta uyğun olmayan qızdırıcı elektrik və qaz cihazlarının, sənaye üsulu ilə hazırlanmayan digər texniki avadanlıqların muxtar respublikaya gətirilməsinə və istismarına yol verilməməsindən, eləcə də bu barədə istehlakçıların və sahibkarların əvvəlcədən məlumatlandırılmasından ibarətdir.

Nəzərə almaq lazımdır ki, keyfiyyətin beynəlxalq qaydalar əsasında təmin edilməsi, ilk növbədə, məhsulların sertifikatlaşdırılmasını tələb edir. "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, vətəndaşların həyatı, sağlamlığı və əmlakı, ətraf mühitin mühafizəsi üçün təhlükəsizlik tələblərinin müəyyən edildiyi mallar məcburi sertifikasiyadan keçməlidir. Uyğunluğu təsdiq edən sertifikat olmadıqda həmin malları Azərbaycan Respublikasında satmaq və istifadə etmək qadağandır. Belə malların ölkə ərazisinə idxal edilməsinə gömrük orqanları tərəfindən icazə verilməsi üçün müvafiq səlahiyyətli orqan, yəni Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən verilmiş və ya tanınmış uyğunluq sertifikatı əsasdır.

Standartlara uyğunluğu müvafiq dövlət orqanı tərəfindən təsdiqlənməmiş qızdırıcı elektrik və qaz cihazlarının idxalına icazə verilməməsi məhz istehlakçıların hüquqlarının müdafiəsi üzrə dövlət siyasətinin tərkib hissəsidir. Çünki qanunvericilik uyğunluq sertifikatı təqdim olunmadan təhlükəsizliyi təmin edilməli olan malların gömrük-buraxılış məntəqələrindən keçirilməsinə yol vermir. Bununla bağlı sərhəd-keçid məntəqələrində vətəndaşlara yazılı, şifahi və elektron qaydada xəbərdarlıqlar olunur, xaricdən qaz sobası gətirmək istəyən fiziki və hüquqi şəxslərə qanunvericiliyin tələbləri izah edilir. Uyğunluq sertifikatı olmadan gətirilən qızdırıcı elektrik və qaz cihazları sərhəd-keçid məntəqələrində saxlanılır.

Vətəndaşlar bilməlidirlər ki, gömrük orqanları insanların həyatı, sağlamlığı və əmlakı, ətraf mühitin mühafizəsi üçün təhlükəsizlik tələblərinin müəyyən edildiyi malların standartlara uyğunluğunu, təhlükəsizliyini vizual şəkildə müəyyənləşdirə bilməz. Bunun üçün inandırıcı və keçərli olan yeganə əsas aidiyyəti dövlət orqanı tərəfindən verilmiş və ya tanınmış uyğunluq sertifikatıdır.

Xaricdən uyğunluq sertifikatı olmadan gətirilən qaz sobalarının gömrük orqanları tərəfindən saxlanılması təhlükəsizliyin təmin olunmasına, vətəndaşlara dəyə biləcək maddi və mənəvi ziyanın qarşısının alınmasına xidmət edir. Əhalinin böyük əksəriyyətinin kəndlərdə yaşadığını, muxtar respublikada məskunlaşma səviyyəsinin ilbəil artdığını nəzərə alsaq, əlbəttə ki, fərdi yaşayış evlərində xüsusən də qazla işləyən cihazların rolu və əhəmiyyəti danılmazdır. Mavi yanacaq nə qədər sərfəli və rahatdırsa, təhlükəsizlik təmin olunmadıqda bədbəxt hadisələr qaçılmaz olur.

Hadisələrin ekspertizası zamanı məlum olur ki, xaricdən gətirilən sobaların heç də hamısı standartlara cavab vermir. Bu isə, öz növbəsində, yanğın, partlayış, zəhərlənmə və ölüm hallarına şərait yaradır. Xaricdən alınmış ucuz, keyfiyyətsiz qaz sobalarının təhlükəsizliyinə isə heç bir dövlət orqanı zəmanət vermir.

Yeri gəlmişkən qeyd edək ki, standarta uyğun sobalarda dəm qazının miqdarı həyat üçün təhlükəli olanda qazın sobaya girişini avtomatik olaraq dayandıran xüsusi qurğu olur. Üstəlik, hər hansısa bir səbəbdən qaz nəqli dayandıqda ehtimal olunan təhlükələrin qarşısının alınması üçün sobalar avtomatik qaz kranı, yəni qaz requlyatoru ilə təchiz edilir. Bütün bunlar isə əhalinin təhlükəsizliyi baxımından son dərəcə əhəmiyyətlidir. Müşahidələr göstərir ki, xarici uyğunluq sertifikatı olan bəzi qaz sobaları vardır ki, maya dəyərinin aşağı salınması və ya hər hansısa başqa bir səbəbdən onların üzərində bu qurğular olmur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2015-2016-cı ilin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilmiş müşavirədə verilmiş tapşırıqların icrası il əlaqədar xaricdən gətirilən, o cümlədən satışa çıxarılan qızdırıcı elektrik və qaz cihazlarının milli sertifikatlaşmaya uyğunluğuna nəzarətin həyata keçirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsi, Fövqəladə Hallar Nazirliyi və Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən daxili bazarda birgə reydlər təşkil olunur. Məqsəd standartlara uyğun olmayan və sənaye üsulu ilə hazırlanmayan elektrik və qaz cihazlarının istismarına yol verilməməsindən və satış dövriyyəsindən çıxarılmasının təmin edilməsindən, o cümlədən sahibkarlıq subyektlərinin hüquqi cəhətdən maarifləndirilməsindən ibarətdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsi bir daha diqqətə çatdırır ki, təhlükəsizliyin təmin edilməsi və istehlakçıların hüquqlarının müdafiəsi üzrə dövlət siyasətinin həyata keçirilməsi məqsədilə xaricdən gətirilən və milli sertifikatlaşmadan keçməyən elektrik və qaz cihazları muxtar respublikaya buraxılmır. Xaricdən bu tip cihazların gətirilməsinə icazə üçün yeganə sənəd aidiyyəti dövlət orqanı tərəfindən verilmiş və ya tanınmış uyğunluq sertifikatıdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

## Güləş üzrə şəhər birinciliyinə yekun vurulub

*Naxçıvan şəhərindəki İslam Hümbətov adına Uşaq-gənclər idman məktəbində məktəblilərin asudə vaxtlarının səmərəli təşkil edilməsi məqsədilə yeniyetmələr (1999-2001-ci illər) arasında sərbəst güləş üzrə Naxçıvan şəhər birinciliyi keçirilib.*



Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının və Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə keçirilən yarışda 9 çəki dərəcəsində 50-yə yaxın idmançı qüvvəsini sınayıb. Yarışın açılış mərasimində çıxış edən idarənin rəisi Xəyal Qurbanov, Güləş Federasiyasının sədr müavini Faiq İsgəndərov bildiriblər ki, tədbirin keçirilməsində məqsəd məktəblilərin asudə vaxtlarını səmərəli təşkil etmək, yeniyetmələr arasında sərbəst güləş idmanını inkişaf etdirməklə Naxçıvan şəhərində güləş ənənələrinin inkişafına nail olmaqdır. Daha sonra çıxış edənlər yarışın qaydaları haqqında idmançılara geniş məlumat veriblər.

Beynəlxalq Güləş Federasiyasının mövcud qaydalarına əsasən keçirilən birincilikdə Elsun Kazımlı, Abbas Həsənov, Bağır Zeynalov, Kənan Kərimov, Murad Quliyev, Həsən Həsənov, Gündüz Məmmədov, Rauf Qurbanov və Nail Nuriyev müvafiq olaraq 42, 46, 50, 54, 58, 63, 69, 76 və 100 kiloqram çəki dərəcələrində mübarizə apararaq həmyaşıdları arasında birinci yerlərə layiq görülüblər.

Sonda hər çəki dərəcəsində yer tutan idmançılar Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin diplomları ilə təltif olunublar.

**✍ Ceyhun MƏMMƏDOV**

## Qışdan qorxma ki, üzü yazadır, payızdan qorx ki, üzü qışadır

### *Əhalinin ənənəvi qış hazırlığı*

Xalqımıza məxsus məişət adət-ənənələrindən biri də soyuq qışa ərzaq tədarükünün görülməsidir. Ehtiyat ərzaq məhsullarının hazırlanması və saxlanılması qaydaları uzun əsrlərboyu formalaşıb və günümüzədək gəlib çıxıb. Yazın sonundan başlayaraq bir çox insanlar qış tədarükü görməyə başlayırlar. Bu məsələdə xanımların əməyi daha çoxdur.

Yusif Vəzir Çəmənzəminlinin "Evdar arvad" məqaləsində də yazdığı kimi: "Ev bir məmləkətə bənzəyir, evdar arvad da onun padşahına. Padşah yaxşı olsa, məmləkət də nizam və qayda ilə dolanar... Mətbəxin nizamı da xanıma bağlıdır. Bacarıqlı arvad evdə qış üçün tədarük görər, cürbəcür mürəbbələr bişirər, turşular və şorabalar hazırlayar, göyərti və meyvə qurudar. Qoçaq arvad hər şeydən mənfəət götürər... xülasə, evdar arvadın vəzifəsi çox çətindir. Böyük hünər və qanacaq istəyir".

Payızın ilk günlərini yaşayırıq. Bütün idarə, müəssisə və təşkilatlar payız-qış mövsümünə hazırlığı sürətlə aparır. Yəni dövlət mövsümi çətinliyin yaşanmaması üçün hər bir tədbiri vaxtında görməyə çalışır.

### *Naxçıvanda əhali bu işə yazın sonlarından başlayır*

Qadınlarımız öz üzərlərinə düşən məsuliyyəti həmişə yaxşı başa düşürlər. Artıq qış gəlir, hamı tədarük görür. Ailələrdə kompotlar, tutmalar, konservlər, mürəbbələr və daha nələr, nələr hazırlanır. Etnoqraf Asəf Orucov deyir ki, qışa tədarük edilməsində əsas əziyyət qadınlarımızın üzərinə düşür. Xalqımızın "qışdan qorxma ki, üzü yazadır, payızdan qorx ki, üzü qışadır" deyimi əsas tutularaq məişət işləri də buna uyğun qurulur. Əhali yazın ilk aylarından başlayaraq payızın axırlarına, xalq dili ilə desək, payızın qışa dönən dövrünə qədər gündəlik tələbatdan artıq qalan məhsulları qışda istifadə etmək üçün tədarük edir. Bu, orta əsrlərdən başlamış bu günədək davam etməkdədir. Dənli bitkilər, maldarlıq məhsulları, müxtəlif yabanı yeməli bitkilər, bostan-tərəvəz məhsullarından və meyvələrdən hazırlanmış qax, doşab, şorabalar, mürəbbələr, riçal, eləcə də ətirli ot dəstələri əhalinin tədarük gördüyü əsas qida məhsullarındandır.



Müsahibimizin sözlərinə görə, meyvəçilik təsərrüfatında meyvələrdən təzə-tər halda istifadə edilsə də, ehtiyat ərzaq məhsulları kimi qış üçün də hər zaman tədarük edilir. Qurudulmuş armuddan, ərikdən, almadan qax, şaftalının xüsusi növü olan nazlı şaftalıdan alana, miyanpur, cəvizdən sucuq, alçadan çırtma və sair hazırlanır.

Ordubad bölgəsinin bu sahə üzrə xüsusilə seçildiyini deyən həmsöhbətim bildirdi ki, XIX əsrin sonu, XX əsrin əvvəllərində şəkər istehsalı genişləndikcə əhali müxtəlif dadlı və ətirli meyvələrdən, giləmeyvələrdən mürəbbələr hazırlayıb qış tədarükü görməyə başladı. Qızılgülün ləçəklərindən də mürəbbə və gülqənd hazırlayıb qışa saxlamaq əhali arasında geniş yayılıb.

Etnoqraf-alim Asəf Orucovun araşdırmalarına görə, meyvələrin ehtiyat ərzaq məhsulu kimi tədarükünün ən münasib yolu onların qurudulması imiş. Xalq arasında meyvələrin qurudulmuşu "qax" adlanır. Bu, iki üsulla həyata keçirilir. Birincisi, Günəş altında, ikincisi isə təndirdə, gillədə qurutmaqdır. Bu üsulların ən sadəsi Günəş altında olanıdır.

Qeyd edək ki, hər bir meyvənin qurudulma müddəti və qurudulması üsullarında fərqlər vardır. XIX əsrdə meyvələrin qurudulmasında təndir və meyvəqurudan kürələrdən geniş şəkildə istifadə olunub. Qurudulmuş meyvələri əhali qış boyu saxlayıb onlardan həm çərəz, həm də qənnadı məhsulu kimi istifadə edib.

Həmsöhbətim bildirdi ki, akademik Teymur Bünyadov yazılarının birində ordubadlıların XX əsrin əvvəllərində hər il 15 min pud ərik qurusu satdıqlarını qeyd edir. Bu mənbələr də göstərir ki, meyvələrin qurudulması qədim dövrlərdən bəri davam edir.

### *Yayın yaxıntısı, qışın yavanlığıdır*

Digər həmsöhbətim Şahbuz rayonunun Ağbulaq kəndində yaşayan 77 yaşlı Gülsabah Quliyevadır. "Düzdür, indi bir çoxları həmin məhsulları dükandan almağa üstünlük verirlər, ancaq ev şəraitində hazırlanan nemətin yerini heç nə vermir", – deyən Gülsabah nənə onu da bildirdi ki, əvvəllər qışa hazırlıq çox çətin idi: "Bilmirdik qışda isinmək üçün odun tədarük edək, ya qidalanmaq üçün banka-balon bağlayıb, ot-alaf qurudaq. İndi şükürlər olsun, daimi mavi yanacağımız var. O sarıdan rahatıq. Ərzaq tədarükünü də əvvəlki kimi aparmırıq".

***Haşiyə:** Muxtar respublikamızda əhalinin ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində atılan addımların nəticəsidir ki, hər il yeni-yeni istixana kompleksləri, soyuducu anbarlar qurulur. Bu da qış mövsümündə belə, əhalini təzə kənd təsərrüfatı məhsulları ilə təmin edir. Həm də ucuz qiymətə.*

"Əvvəllər badımcanı, bibəri, pomidoru, bir çox meyvələri, dağ otlarını, hətta əti belə, qışa qurudaraq saxlayırdıq. İndi qışda da təzə, həm də dadlı meyvə-tərəvəz, ət və ət məhsulları olur. Ona görə də qurutmağa ehtiyac qalmır. Amma elə bitkilər var ki, onları bu gün də quruduruq", – deyən Gülsabah nənə bildirdi ki, nə etməsək də dadına doyulmayan, Naxçıvana məxsus olan qovurmanı hər il, demək olar ki, hər ailə tədarük edir. Oktyabrın sonu, noyabrın əvvəllərində, əsasən, erkək heyvan ətindən edirik qovurmanı. Bizim yerlərdə marta qovurması qalmayana "Pinti arvad qovurmasın qurtarıb" deyərdilər. Bundan əlavə, əriştə kəsərik qış üçün. Bu il havalar arada sərinlədi. Qışın tez düşəcəyindən təlaşlanıb indidən əriştə kəsənlər də var. Ancaq, əsasən, oktyabrda kəsərlər əriştəni. Tutmalar, şorabalar, mürəbbələr hazırlayırıq. İndi bu cavanlar ənənəvi turşulardan başqa, müxtəlif salatlar, kompotlar və digər məhsulları da qışa tədarük görürlər".

Ümumiyyətlə, ta qədim zamanlardan insanlar yaz-yay-payız aylarında intensiv işləyir, torpaqla əlləşib qışa tədarük görür və qışda digər üç fəsildə topladıqlarını yeyirdilər. Bu il də doğma diyarımızda əhali qış tədarükünü vaxtında və lazımınca aparır.

**Gülnar YÜZBAŞIYEVA**

***İtmişdir***

Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 13-15, mənzil 3-də yaşayan Zeynalov Hafiz Qasım oğlunun adına olan 5449 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

**Baş redaktor:** TURAL SƏFƏROV

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Səbuhi Həsənov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 4020. Sifariş № 722**